# (HƏDIS (22 10

---

<"xml encoding="UTF-8?>

HƏDIS (22) 10

Hədis 210: Həzrət Əli (ə) buyurur: “Az yemək bədəni bir çox xəstəliklərdən qoruyur.”

* * *

Hədis 211: Həzrət Əli (ə) buyurur: “Əməl edilən az elm, əməl edilməyən çox elmdən üstündür.”

* * *

Hədis 212: Həzrət Əli (ə) buyurur: “Axmağın qəlbi dilinin, aqilin dili isə qəlbinin arxasındadır (yə`ni, aqil əvvəlcə düşünər sonra danışar).”

* * *

Hədis 213: İmam Sadiq (ə) buyurur: “Böyüklərimizə ehtiram göstərməyən, kiçiklərimizə isə rəhm etməyən kəs bizdən deyildir.”

* * *

Hədis 214: İmam Sadiq (ə) buyurur: “Bizim vilayətimiz (hakimiyyətimiz) Allahın hakimiyyətidir. Heç bir peyğəmbər bu vilayətsiz məb’us edilməmişdir.”

* * *

Hədis 215: İmam Sadiq (ə) buyurur: “Başqasının sirri üzərindən pərdəni götürənin öz evinin sirləri aşkar olar.”

* * *

Hədis 216: İmam Sadiq (ə) buyurur: “Qardaşına quyu qazan özü düşər.”

* * *

Hədis 217: İmam Sadiq (ə) buyurur: “Qadınlarınızın pak qalması üçün gözünüzü xalqın namusundan çəkin.”

* * *

Hədis 218: İmam Sadiq (ə) buyurur: “Mö`min başqaları ilə keçinir və əsla kimsə ilə didişmir.”

* * *

Hədis 219: İmam Sadiq (ə) buyurur: “Dolanışıqda orta həddi gözləyən şəxs heç vaxt fəqir ”.olmaz

* * *